# Rinolaliyanın korreksiyası zamanı səslərin nazallaşmasının aradan qaldırılması yolları

**Nailə Hüseynova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*"Korreksiyaedici təlim" kafedrasının*
*müdiri, dosent*
**E-mail:** nailyahuseyn72@gmail.com

**Rəyçilər:** ped.ü.f.d., dos. D.Ə. Dostuzadə,
filol.ü.f.d., dos.T.N. Ağayeva

**Açar sözlər:** rinolaliya, korreksiya-pedaqoji iş, nazallaşma, çalışma, yumşaq damaq, əməliyyat, səsin nazalizasiyası, fonematik eşitmə

**Ключевые слова:** открытая ринолалия, коррекционно-педагогическая работа, назализация, гласные звуки, согласные звуки, фонопедичнские упражнения, восстановление голоса, назализация звуков

**Key words:** open rinolalia, correctional-pedaqoqical work, nasalization, rehabilitation of the sound, nasalization of sound, phonometic hearinq

Loqopediyada təsvir edilmiş samitlərin əmələgəlmə üsulları artikulyasiya aparatındakı üzvi dəyişikliklərə, kinesteziyanın və eşitmə diferensatorların aşağı düşməsinə görə həmişə rinolaliyaya müvafiq gəlmir. Metod və məşğələlərin seçilməsi həmişə ciddi şəkildə fərdiliyə üstünlük verilir. Lakin bununla belə hətta bu halda da üzvi qüsurlar ideal artikulyasiyanın nail olmasına maneə törədə bilər. Buna görə də fonemlərin akustik tamlığına yönələn zaman artikulyasiyada geriləmələrlə qarşılaşmaq olar.

Aşağı kinesteziyalı və fonematik eşitmənin pozulmaları olan uşaqlara, daha kobud artikulyasiyalarda dayanmaq məcburiyyətində qalırlar: dişarası, bir vurğulu və s. yəni analoq səslərdən istifadə etmək (samitlərin qoyuluşu).

Nitqə yeni vərdişlərin yeridilməsi aşağıdakılardan başlayır:

1. Heca məşqlərinin aparılması, burada samit səs iki sait arasında interaktiv mövqedə dayanır. Sonor "l" və "v,v, f,f" frikantları ilə məşğələlərin təkrar edilməsi daha asan başa gəlir, Bu səsləri əməliyyatdan sonra daha asan ve yüngül olur "ava, ava, avı, afı, afa və s.". Uşaq səs birləşmələrini tələffüz edərkən stulda dərin şəkildə əyləşərək əllərini sinəsində cəmləyir. Səs birləşmələri yumşaq çıxışda, loqopedin ardınca əks olunmuş şəkildə təkrar edilir sonra isə müstəqil şəkildə icra edilir. Tapşırığın düzgün icrası zamanı ovuc içincə yüngül vibrasiya hiss olunur.

2. İlk sait səsdə səs gücünün azaldılması və ikinci səsdə artırılması ilə aparılan tələffüz : aVA, aLİ, aFA və s. Analoji tapşırıq işin gedişi zamanı bütün samitlərlə aparılır.

3. Açıq hecaların tələffüz edilməsi - interaktiv hecada ilk sait fonemin səssiz deyilişi və açıq hecanın tələffüz edilməsi.

4. Kiçik ifadələrin deyilişi zamanı əmələ gəlmiş fonemlərin sözlərə və cümlələrə yeridilməsi. Bu zaman yalnız qoyulmuş səsləri, tərkibinə daxil edən sözlər istifadə edilir. Buna görə də sözlər və ifadələr fərdi şəkildə seçilir, yaş və inkişaf səviyyəsi nəzərə alınır.

Məhdud sayda fonemlərə sahib olan vaxtda bu, fonemlərdən təşkil olunmuş səs və ifadələrdən mümkün qədər çox tələffüz etmək lazımdır. Bu stabil didaktik materialın tələffüzü

üzrə yaradılmış vərdişlərin fiksasiya edilməməsi, əksinə, danışıq nitqinin şərtlərinə mümkün qədər yaxınlaşmaq üçündür.

Kiçik məktəbəqədər yaşlı uşaqlar üçün səslər və hecalar abstrakt şəkildə səslənir. Buna görə onlarda sözlərdə səslər daha yaxşı səslənir. Səs üzərində iş sistemi özünə aşağıdakıları daxil edir:

— təcrid edilmiş səslənmənin işlənməsi;
— daha sonra qapalı hecada;
— intervallı hecada;
— açıq hecada;
— samit birləşmələrində.

Tələffüzün sürəti getdikcə artırılır, sözlərdə və birləşmələrdə vurğunun yeri dəyişdirilir.

Nazalizasiyanın aradan götürülməsi qapalı hecaların təmiz tələffüzündən başlayır. Qapalı hecalarda hər iki səs aydın şəkildə eşidilir. Onların daha az bitişikliyi qeyd olunur, ona görə də onlar bu mövqedə daha çox seçilə bilirlər. Tələffüz yumşaq vurğuda həyata keçirlir. Bu zaman "səsin nəbzi" üsulundan istifadə edilir, bütün səsin önə doğru hərəkəti təmin edilir, bu isə düzgün artikulyasiyaya və nazalisasiyalı nitqin aradan qaldırılmasına gətirib çıxardır. Bu zaman sait səslər "köməkçi səslər"-ə çevrilirlər. Saxlanılmış və bir qədər dartılmış sait səs enerji sıçrayışını həyata keçirərək heca, səs və ifadələrin bütün səslənməsini ağız boşluğunun ön şöbələrinə "dartır".

Məşğələ. 1. "l və r" sonorları olan hecaların yumşaq başlanğıcda tələffüzü. Bu zaman "əllərin isinməsi", "özünü dinlə" "səsin nəbzi" üsullarından istifadə edilir : «il, el, al, öl, ül, ele, ulu, el-elü, al-al, ul-ul».

2. Son hissədə sonorlar olan fleksiya, hecalar, sözlərin tələffüzü «lil, ril, il, lir, rıl».

3. Səsyamsılamaların tələffüzü. Bu iki yolla aparılır: birinci halda siz bunu uşaqla birgə, yaranmış şəraitə əsasən iki nəfəsalmada icra edirsiz, ikinci halda isə uşağa müvafiq şəkillər göstərilir.

4. Cümlədə sait sə sonor səslərin tələffüzü

Ana, topu al. Lalə əlini ver.

5. Vurğulu sonluqlu sözlərin tələffüzü.

6. Sözlərin sonunda aksentli ifadələrin tələffüzü və s.

Nitq-eşitmə diferensasiyaların inkişafı.

Fonematik eşitmənin ikişafı uşağın qüsurlu səs tələffüzünü normadan diferensasiyaya istiqamətləndirir. Təlim prosesi, fonemlərin düzgün tələffüzü zamanı yeni hissiyatların və artikulyasiyanın təhlilindən başlayır.

Səs qüsurlarının düzəldilməsi üçün fonepedik məşğələlər səs diapazonunun genişləndirilməsi, səs gücünün artırılması üzərində qurulur. Uşaqlar kinestetik cəhətdən hiss etməyi və eşitmə vasitəsi ilə düzgün fonasiyanı diferensasiya etmək bacarığını əldə etdikdən sonra, səs diapazonunun genişləndirilməsi, səs gücünün artırılması üzrə məşğələləri yerinə yetirə biləcəklər.

Yeni vərdişlərin tam olaraq avtomatlaşdırılması, qalıq rinolaliyanın götürülməsi. Spontan nitqə yeni səslərin əlavə edilməsi işin əsas mərhələləridir.

Qoyulmuş səslərin spontan nitqə daxil edilməsi uşaqların yaş xüsusiyyətlərinin nəzərə alınması ilə həyata keçirilir. Məktəbəqədər yaşlı uşaqlar səsləri canlı situastiv şəraitdə möhkəmləndirirlər. Bu loto, tapmacaların tapılması, cümləyə sözün əlavə edilməsi, çoxlu sayda oxşar əşya adları olan süjetli oyunlardır. Məşğələnin forması azad, ixtiyarı quraşdırlmış və emosional cəhətdən rəngarəng cavabları nəzərdə tutur. Bu mərhələdə yanıltmacları, şeirləri,

atalar sözlərini yalnız artikulyasiyanın möhkəmləndirilməsi üçün istifadə etmək olar. Bu vasitələr canlı sərbəst nitqi yaxşılaşdırmağa kömək etmir.

Xırda motorika üzərində aparılan işin məqsədi - qrafik və görmə-motor vərdişləri, diqqəti, qavrayışı, məkanda bələdləşməni inkişaf etdirmək, hərəki funksiyaları korreksiya etmək, ritmik hərəkətləri normallaşdırmaq, nitq inkişafını yaxşılaşdırmaqdır.

Məşğələlərin vacibliyinə daxildir:

— əl əzələlərinin möhkəmləndirilməsi;

— həm ekspressiv, həm də daxili nitqin inkişafına kömək edir;

— obrazlı və məntiqi təfəkkürü fəallaşdırır;

— yazı təliminə keçid zamanı psixoloji gərginliyi aradan götürür.

Qeyd etmək lazımdır ki, bütün səslərin qoyuluşu prosesində nazalizasiya əhəmiyyətli dərəcədə azalır. Ətrafdakılar üçün uşaqların nitqi daha da aydın olur, bu isə onun kommunikativ funksiyasını təmin edir.

**Məqalənin aktuallığı**. Məktəbəqədəryaşlı rinolaliyalı uşaqların nitqində yaranan səslərin aradan qaldırılması yollarına həsr olunub.

**Məqalənin elmi yeniliyi.** Məqalədə açıq rinolaliyalı uşaqların problemləri araşdırılır, korreksiya zamanı səslərin nazallaşmasının aradan qaldırılmasına dair məsləhətlər verilib.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən təkliflər, nəticələr, məktəbəqədər müəssisələrdə, reabilitasiya mərkəzlərində təlim-tərbiyə prosesində nəzərə alına bilər.

## Ədəbiyyat

1. Вансовская Л.И. Методы обследования больных с открытой ринолалией // Современные проблемы физиологии и патологии голоса и речи. М., 1979.

2. Вансовская Л.И. Устранение нарушений речи при врожденных расщелинах неба. - СПб.: «Гиппократ», 2000.

3. Ерма. Просвещение, 1984.

4. Ермакова И.И. Коррекция речи при ринолалии у детей и подростков. - М.: Просвещение, 1984.

**Н. Гусейнова**

## Пути устранение назализации звуков при коррекции ринолалии

## Резюме

Фонопедические занятия используются при коррекционной работе направленной на восстановление голоса при ринолалии. Эти упражнения так же эффективны для устранения назализации звуков при произношении. Процесс обучения начинается с правильного произношения фонем. Анализ артикуляционных и чувствительных процессов тоже является результатом процесса обучения.

Для устранения нарушений голоса необходимо проводить фонопедические упражнения по расширению и усилению диапазона голоса. Если дети посредством

осязания и слуха будут дифференцировать правильную фонацию, то они смогут выполнить упражнения по усилению и расширению диапазона голоса.

**N. Hüseynova**

## The Ways to eliminate the splittinq of the voices durinq the correction of rhinolaliya


## Summary

Durinq rinolalia,used phonophetic studies. These studies are effective for correction nasalization of the sounds. Improvinq of phonometic hearinq is aimed to child's deffective sound pronensation from normal to differentiation.

Traininq process begins analysis of new senses and articulation durinq correct prononsation of phonems. Phoneometic studies for correction of the deffective sound.


**Redaksiyaya daxil olub:** 03.09.2018